# Prezident beş ildən sonra peşə axtarışı ilə üzləşəcək gəncləri xəbərdar etdi...

## *Kamran Əsədov: "20-30 ildən sonra bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaq"*

**"Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da". Bu sözləri ölkə Prezidenti cənab İlham Əliyev iştirak etdiyi Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxışı zamanı deyib. Prezident çıxışı zamanı tələbələrə məsləhət görüb ki, onlar dərslərini daha yaxşı oxusunlar. Bilik olmasa, diplom heç nədir:**

"Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: "tapş", o, instituta "tapşla" daxil oldu. Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə, varsa, onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa, müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır".

Prezident qeyd edib ki, artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur: "Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq".

Prezidentin qeyd etdiyi kimi, zamanla bəzi peşələr sıradan çıxır və onları başqa sahələr əvəz edir. Nəzərə almaq lazımdır ki, 15-20 il öncə ilə müasir dövrün insanlarının həyata baxışı, intellekt səviyyəsi, eyni zamanda, İKT-nin inkişafı bir deyildi. Bu səbəbdən də zaman keçdikcə, bəzi peşələrə maraq azalır və onları yeni ixtisaslar əvəz edir.

Maraqlıdır, qarşıdakı 5 il ərzində hansı peşələr ləğv olunacaq?

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "İlk növbədə qeyd edim ki, qəbul imtahanlarının nəticələrini təhlil edəndən sonra məlum oldu ki, bu il Azərbaycan bölməsində I qrupda abituriyentlər ən çox Bakı Ali Neft Məktəbinin "Neft-qaz mühəndisliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Bakı Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", IV qrupda Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisaslarına üstünlük veriblər. I, II və IV qruplarda rus bölməsində bu il abituriyentlərin seçimi üstünlük veriblər. Digər ixtisaslara seçim bunlarla müqayisədə az olub.



*"...bu istiqamətdə heç bir araşdırma..."*

Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin orta statistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarınadır. Orta statistik qız abituriyentin özündə humanitar ixtisasları birləşdirən III ixtisas qrupuna istəyi çox yüksəkdir. Azərbaycan bölməsində qız abituriyentlər, həmişə olduğu kimi, "iqtisad və idarəetmə ixtisaslarına" (II qrup) az maraq göstərirlər. Rus Azərbaycan bölməsi ilə eyni olub. III qrupda isə rus bölməsinin abituriyentləri Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili)" ixtisasına daha çox bölməsinin qız abituriyentlərinin isə həmin ixtisaslara istəkləri nisbətən yüksəkdir. IV ixtisas qrupunda oğlan və qızların istəkləri bir-birinə yaxın olsa da, qeyd etmək lazımdır ki, bu istəklər ixtisaslar üzrə fərqlidir. Burada qızlar tibb ixtisaslarına üstünlük verirlər. V ixtisas qrupunda oğlanlar daha çox idman ixtisaslarına meyl edirlər. Bu qrupda qabiliyyət tələb edən ixtisaslardan ən çox qızlar təsviri sənət müəllimliyi ixtisasını seçirlər.

Sözsüz ki, elə ixtisaslar var ki, doğrudan da əmək bazarında o istiqamət üzrə məzunlara ehtiyac yoxdur. Burada mütləq ali təhsilli mütəxəssis lazımdır. Məsələn, riyaziyyat, xarici dillər, ibtidai sinif və ümumiyyətlə, bütün ixtisaslar üzrə müəllim ixtisasları var. Düşünürəm ki, müəllim ali təhsilli olmalıdır. Bu, dünya təcrübəsində də belədir. Məsələn, Finlandiya orta məktəblərində magistraturanı bitirənlər ancaq orta məktəblərdə müəllim işləmək hüququ qazanırlar. Demək, zaman dəyişib, tələblər başqadır.

Bir qayda olaraq, oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük verirlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, dünyada belə bir tendensiya gedir, gələcəyin yeni ixtisasları formalaşır. Azərbaycanda gələcəyin ixtisasları nə ola bilər, bu haqda düşünən yoxdur: "20-30 ildən sonra bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaqlar. Onun yerini isə başqa ixtisaslar alacaq. Ona görə də bunun araşdırılması lazımdır ki, bizdə 15-20 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq. Bu haqda düşünən yoxdur. Mən özüm Azərbaycanın əmək bazarına hansı ixtisaslar lazım olacaq, onu bilirəm. İstər elmdə, istərsə də kənd təsərrüfatında, iqtisadi həyatın bütün sahələrində, sosial həyatımızda dünya çapında gedən dəyişiklikləri izləyir və bilirik. Azərbaycanın əmək bazarına bu hansı dəyişikliklərlə təsir edəcək, 10-15 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq, biz bunu müəyyənləşdirməli, bilməliyik ki, strateji planımız olsun. Təəssüf ki, bu istiqamətdə heç bir araşdırma və düşüncələr yoxdur.

Bu gün bizim nəinki yaxşı mühəndisə, hətta yaxşı ustaya da ehiyacımız var. Ancaq diplom sahibinə yox, həqiqi mütəxəssisə. Bu tələbat getdikcə daha da artacaq.

Hesab edirəm ki, universitetdə daha lazımlı ixtisaslar yaradılmalıdır. Bir çox fakültədən məzun olan insanların sonrakı fəaliyyəti ilə bağlı analiz göstərir ki, 20-30 il ərzində oxuduqları ixtisaslar üzrə aldıqları təhsil bu gün və ya sabah lazımsız olur. Sovet dövründə iş yerinin çox olmasına baxmayaraq, bizdə neft ixtisasları populyar deyildi. Amma indi yüksək bal toplayanların yarıdan çoxu neft ixtisaslarını seçir. Bir vaxt bizdə populyar olmayan gömrük ixtisası da artıq dəbdədir. Eyni sözü İT mühəndisləri barədə də demək olar".

***Günel CƏLİLOVA***